# 9 oktyabr prezident seçkiləri günüdür

## Vəndam və Nic qəsəbələri seçicilərinin yekdil rəyi: möhtərəm cənab İlham Əliyevə səs verəcəyik!

Yeni Azərbaycan Partiyasından Azərbaycan Respublikası Prezidentliyinə namizəd cənab İlham Əliyevin təbliğat kampaniyası Qəbələ rayonunda uğurla davam edir. Təbliğat qrupunun üzvləri oktyabrın 4-də rayonun Nic və Vəndam qəsəbələrində seçicilərlə görüşmüşdür. Görüşləri Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov giriş sözü ilə açmışdır.

Seçicilərin yüksək fəallığı ilə keçən görüşlərdə Nic qəsəbə sakinləri Əhməd Məmmədov, Asya Quqasova, Ağalət Baxışov, Olek Danakari, Həmdiyyə Qəribov və başqaları çıxış edərək son 10 ildə ölkədə, Qəbələ rayonunda və Nic qəsəbəsində həyata keçirilən böyük quruculuq işlərindən iftixarla bəhs etmişlər. Onlar bildirmişlər ki, Nic qəsəbəsi öz unikallığı ilə fərqlənir. Belə ki, Nic dünyada yeganə yaşayış məskənidir ki, burada Azərbaycan ərazisində qədimdən yaşamış xalqlardan biri olan udilər kompakt şəkildə məskunlaşmışlar. Udilərdən başqa bu qəsəbədə Azərbaycanda yaşayan xalqların əksəriyyətinin nümayəndələri birlikdə mehribanlıqla yaşayır.



Son 10 ildə Azərbaycanda baş verən sürətli inkişaf Nic qəsəbəsində də dərin əksini tapmışdır. Qəsəbənin mərkəzində köhnə uçuq-sökük tikililərin yerində indi gözəl abad park salınmış, səliqəli, müasir ticarət və iaşə obyektləri tikilmişdir. Məşhur, və uzun illərlə fəaliyyət göstərən Nic qəsəbə həftə bazarı yenidən qurulmuşdur. Son beş ildə qəsəbədə 2 geniş müasir məktəb binası tikilmiş, rayon mərkəzindən qəsəbəyə gələn və qəsəbədaxili yol genişlənmiş, asfaltlanmışdır.



Əhalinin mənəvi dəyərlərinə də xüsusi qayğı göstərilmişdir. Qəsəbədə yaşı 200 ildən artıq olan qədim udi kilsəsi bərpa olunmuş, yeni məscid tikilmişdir. Qəsəbənin qazlaşdırılması üçün tədbirlər görülür. Əsas qaz xətti qəsəbəyədək çəkilmişdir. Yaxın vaxtlarda qəsəbənin daxilində qaz xəttlərinin çəkilməsinə başlanacaqdır. Qəsəbə sakinləri qürurla bildirdilər ki, ölkə Prezidenti cənab İlham Əliyev 2 dəfə Nic qəsəbəsində olmuş, qəsəbə 2 saylı tam orta məktəbin açılışında iştirak etmiş, qəsəbənin inkişafı üçün əlaqədar qurumlara tapşırıqlarını vermişdir. Nəticə göz qabağındadır. Buna görə də Nic qəsəbə seçicilərinin rəyi yekdildir.

Vəndam qəsəbəsində keçirilən görüşdə seçicilərdən Qətibə Abbasova, Ülviyyə Hüseynova, Yanvar Müzəffərov, Səadət Əsgərova, Seyidağa Həmidov və başqaları çıxış edərək, Vəndam qəsəbəsində həyata keçirilən quruculuq, abadlıq işlərindən bəhs edərək bildirmişlər ki, Vəndam qəsəbəsi bu gün öz simasını müqayisəedilməz dərəcədə dəyişilmişdir. Qəsəbə qazlaşdırılmış, burada bir çox turist istirahət obyektləri, istehsal müəssisələri açılmışdır. Qəsəbədə işsizlik problemi həll olunmuşdur. Vəndam qəsəbəsinin seçiciləri bu yüksək qayğıya görə ölkə başçısına minnətdarlıqlarını və seçkilərdə yekdilliklə cənab İlham Əliyevə səs verəcəklərini bildirmişlər.

Görüşlərdə Milli Məclisin üzvü, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov və professor Elman Məmmədov çıxış etmişlər. Çıxışlarda bir daha vurğulanmışdır ki, son 10 ildə cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda sosial-iqtisadi sahədə misli görülməmiş inkişaf baş vermişdir. Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və mövqeyi möhkəmlənmişdir. Bütün burada deyilən və deyilməyən uğurların dinamikasının saxlanması üçün bu siyasətin davam etdirilməsi vacibdir.

Sonda çıxış edənlər bütün seçiciləri 9 oktyabrda möhtərəm cənab İlham Əliyevə səs verməyə çağırmışlar.

## Ağsaqqalların və gənclərin seçimi eynidir: İlham Əliyev

Yeni Azərbaycan Partiyasından Azərbaycan Respublikasının Prezidentliyinə namizəd cənab



İlham Əliyevin təbliğat kompaniyası uğurla davam edir.

Təbliğat kompaniyası çərçivəsində Qəbələ rayonundan seçilmiş millət vəkili Respublika Ağsaqqallar şurasının sədri Fəttah Heydərov, Qəbələ rayonundan yetişmiş ziyalı, professor Elman Məmmədov, Qəbələ rayonu ağsaqqallarının və gənclərinin nümayəndələri ilə görüşmüşlər.

Görüşü giriş sözü ilə YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov açmışdır. Söz Professor Elman Məmmədova verilmişdir. Natiq ölkəmizdə həyata keçirilən sürətli quruculuq işlərindən danışmaqla yaşlı və gənc nəslə göstərilən böyük qayğıya cavab olaraq onları cənab İlham Əliyevə səs verməyə çağırmışdır.

Rayon Ağsaqqallarından Nurəddin Şirinov, Alı Məmmədov, İbrahimxəlil Həmidov, gənclərdən Mədinə Qasımova, İlham Ədilov, Yazgül Hacıyeva, Rəşad Əhmədov cıxış edərək seçiciləri cənab İlham Əliyevə səs verməyə dəvət etmişlər.

Yığıncaqda Azərbaycan Respublikası Milli Məclisinin üzvü Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov çıxış edərək son 10 ildə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasətdən bəhs etmiş, hamını seçkilərdə ona səs verməyə dəvət etmişdir.

## Qadınlar davamlı sosial-iqtisadi inkişafa, sabitliyin qarantına səs verəcəklər

5 oktyabr 2013-cü ildə Azərbaycan Respublikası Prezidentliyinə namizəd cənab İlham Əliyevin YAP Qəbələ Rayon Təşkilatı üzrə təbliğat qrupunun üzvləri rayonun fəal qadınlarının bir qrupu ilə görüş keçirmişlər.



Yığıncağı giriş sözü ilə YAP Qəbələ Rayon Təşkilatı qadınlar şudasının üzvü Arifə Bayramova açaraq qəbələ rayon qadınlarının rayonun ictimai-siyasi həyatında fəal iştirak etdiklərini diqqətə çatdırdı.

Görüşdə çıxış edənlərdən Yasəmən Qasımova rayonun Vəndam qəsəbəsində görülən quruculuq və abadlıq işlərindən söz açaraq görülən işləri yüksək qiymətləndirdi. Elnarə Qoçayeva, Şahnabad İsmayılova, sahibkarlığın inkişafına kömək, sahibkarların aşağı faizlərlə kreditlə təmin olunması, Şəhla Seyidova, Anjela Çintalova müasir məktəb, kilsə, məscid və digər obyektlərin rayonda tikintisini yüksək qiymətləndirərək dövlətin göstərdiyi qayğıdan söz açdılar. Tədbirdə mexseti türkü Xanım Faxlulova evlə və işlə təmin olunduğunu qeyd edərək ona göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə etdi. Adilə Tağıyeva, Çimnaz Müzəffərova və başqaları çıxış edərək seçkilərdə qadınların yekdilliklə İlham Əliyevə səs verəcəklərini bildirmiş, hamını bu cağırışa qoşulmağa dəvət etmişlər.

Təbliğat qrupunun üzvü professor Elman Məmmədov çıxışında qadınların ölkə həyatının bütün sahələrindəki fəallığından bəhs etmiş, onları seçkilərdə fəallıq göstərməyə və cənab İlham Əliyevə səs verməyə çağırmışlar.

Azərbaycan Respublikası Milli Məclisinin üzvü respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov çıxış edərək son 10 ildə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasətdən bəhs etmiş, hamını seçkilərdə ona səs verməyə dəvət etmişdir.

**Səhifənin materiallarını çapa Qəbələnin əməkdaşı Qüdrət SƏMƏDOV hazırlamışdır. Fotolar Səhrab UMUYEVİNDİR.**